
RAMAZAN ayının mənəvi qaydaları
Səhər çağına aid əməllər:
1.Sübh vaxtı Qədr surəsini oxumaq.
2. İmsak etmək : hətta bir xurma və ya bir az su ilə də olsa, sübh tezdən imsak etməli və onu əsla tərk etməməli!
3.Səhər duasını oxumaq.
4.Səhəri salavat və zikirlərlə keçirmək.
Günün əməlləri
1. Mübarək Ramazan ayında etikaf iki həccə və iki ümrəyə bərabərdir.
2. "Məfatihəl Cinan"ın göstə-rişinə əsasən, iki rəkətli müstəhəb namaz qılmaq.
3. Hər vacib namazdan sonra "Allahummə ədxil əla əhlil qubu-rəs-surur..." duasını oxumaq.
4. Hər vacib namazdan sonra "Allahummə ərzuqni həccə bəytikəl həram..." duasını oxumaq.
Axşam çağına aid əməllər
1. Quran oxumaq və Quranla ünsiyyət qurmaq.
2. Axşamlar " Əbu Həmzə Sumali " duasını oxumaq.
3. Haram, hətta şübhəli yeməklər-dən uzaq olan pak yeməklər yemək.
4. Mübarək Ramazan ayının tək gecələrində qüsl vermək.
İftar vaxtına aid əməllər
1. İftar vaxtı Qədr surəsini oxumaq.
2. İftar vaxtı sədəqə çıxmaq və camaata iftar yeməyi vermək.
3. İftar vaxtı xurma, isti su, süd, nabat və ya halva ilə iftar etmək.
4.İftardan öncə "Əhd duası"nı oxumaq və "Bismilləhir Rahmənir Rahim. Ya Vasiəl Məğfirəti iğfir li" demək.



# Cənnət müjdəçisi
# RAMAZAN AYI

## MÜQƏDDƏS RAMAZAN AYI İNSAN RUHUNUN VƏ CİSMİNİN TƏMİZLƏNMƏSİ, CİLALANIB, SAFLAŞMASI AYIDIR.




*Bu ay sanki maddi gözlə görmədiyimiz aləmlərin darvazasının açıldığı, mələklər, ruhlar və müqəddəs ruhların bizlərlə görüşməsi və Allah tərəfindən Lövhu-Məhfuzda talelərimizin yenilənərək, yaxşı və ya pis tərəfə dəyişdirilməsi ayıdır. Bir sözlə bu dünya həyatımızı mənalı, səmərəli, dəyərli, hörmətli, əziz keçirmək və əbədi dünyada da müəyyən məqam sahibi olmaq üçün Allahın bizlərə verdiyi bir fürsət ayıdır. Çünki, Allah Özü bizləri yaratdığına və Öz müqəddəs ruhundan bəxş etdiyinə görə, bizi anamızdan da çox sevir. Bizləri belə sevə-sevə yaradan, bizləri nə bu dünyada cəzalandırmaq, nə də ki, əbədi dünyada Cəhənnəm odunda yandırmaq istəməz. Sadəcə bu "İmtahan dünyası"nın məğzi olan və Allahın istəyi ilə müxtəlif bəhanələrlə imtahan olunan bizləri, seçərək öz əbədi Cənnətinə layiq etmək istəyir. Bu müqəddəs ayda Allah-taala bizlərə batinimizdə yığılıb qalan nəfsi rəzalətlərdən (qəzəb, nifrət, kin-küdurətdən) qurtarmaq, günahlar yükünü tökmək və orqanizmin təmizlənməsi üçün oruc tutmağı buyurur. Çünki ac qalan orqanizmin daxilində elə proseslər gedir ki, insan qəlbi istər -istəməz yumşalır və insan sanki öz ruhuna daha yaxın olur.*

*Əslində, biz insanlar ruhən çox güclü olsaq da, cismən ən aciz varlıqlarıq. Çünki aclığa, susuzluğa soyuqa-istiyə və müəyyən xəstəliklərə qarşı çox dözümsüzük. Bu səbəbdən də bu ayda Allah-taala bizi dözümsüz bədənimizlə, mallarımızla (xums- zəkat, kəffarə, fitrə) imtahan edir ki, Onun bəxş etdiyi canın, malın , ömrün, əzizlərin, təbiətin, bir sözlə bütün nemətlərinin dəyərini, qədrini daha yaxşı bilək. Həm də ac-susuz qalmaqla bu dünyadakı kasıbların çəkdiklərini hiss edək və əbədi dünya nemətləri qazanaq Quran-Kərimdə əbədi dünyada olan Cənnət nemətlərinin ləzzətindən və Cəhənnəmdə olacaq ac-susuzluğun, zəqqumun dəhşətindən bəhs edən ayələr çoxdur. Deməli, az bir zaman yaşayacağımız bu dünyada olduğu kimi əbədi dünyada da ruh və cismimizlə bu duyğuları (şirin-acını) hiss edib, əbədi yaşayacağıq. Əbədi dünyada Cəhənnəm əzabından qurtarıb gözəl məqam sahibi olmağımız üçün Qadir Allah bizlərə bu dünyada insanlarla mehriban, gözəl ünsiyyət etməyimizi, bizə bəşx etdiyi var- dövlətimizdən (elm-bilik, pul-maldan) sədəqə verməyimizi, oruc tutmağımızı, (müəyyən səbəbdən oruc tuta bilmədikdə bədənin kəffarəsini verməyimizi) Onunla beş vaxt namaz vasitəsi ilə söhbət etməyimizi, dualarla bilib-bilmədiyimiz, günahlarımız üçün əfv diləməyimizi istəyir. Bütün bunlarla da Uca Yaradan bizə Cənnət məqamlarının müjdəsini vermək istəyir.*

**Ağayeva Mənzər**

# ORUCUN SİRLƏRİ VƏ BATİNİ ŞƏRTLƏRİ

**Oruc müsəlmanlara Peyğəmbərin (s) Mədinəyə hicrətindən iki il sonra vacib buyuruldu. Ayə nazil oldu ki, "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" (Bəqərə-183).**

Bildirildi ki, oruc mübarək ramazan ayında və Allaha minnətdarlıq üçün tutulur, çünki, Quran bu ayda nazil edilmişdir. Bu ayda xəstələrdən, səfərdə olanlardan başqa yetkinlik yaşına çatmış bütün müsəlmanlar oruc tutmalıdırlar, xəstələr və səfərdə olanlar isə onları oruc tutmaqdan saxlayan səbəb aradan qalxdıqdan sonra başqa günlərdə oruclarının qəzasını tutmalıdırlar.

**(Oruc tutmaq)** sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir! İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu əkbər" deməklə) təzim və şükür edəsiniz. (Bəqərə, 184-185).

Məkkədən Mədinəyə hicrətdən sonra iki il müsəlmanlar özlərindən "əvvəlki ümmətlər kimi" ayda üç gün oruc tuturdular. Mədinədə Quran orucu ramazan ayı ilə əlaqələndirdi. Orucun vacibliyi barədə ayə nazil olandan sonra ilk vaxtlar müsəlmanlar gecə yarıdan keçənədək oruc tutur, sonra oruclarını açır, yeyir-içir və yatırdılar. Bəzi rəvayətlərə görə, ilk vaxtlar oruc gecə namazına qədər davam edirdi. Hər halda, gecə yeyib-içmək, qadınla yaxınlıq etmək orucu pozmaq kimi qiymətləndirilirdi. İftar etmədən yatanlar səhəri gün gecəyədək nə yeyir, nə də içə bilərdilər. Bəzi yaşlı müsəlmanlar uzun müddət aclığa-susuzluğa dözə bilməyib huşlarını itirir, iş görmür, taqətsiz gəzərdilər, cavanlar isə arvadlarına gecələr yaxınlıq etməkdən özlərini saxlaya bilmirdilər. Ayə nazil oldu ki: "Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız. (Bir-birinizə həddindən artıq yaxınsınız). Allah sizin özünüzə



pislik (xəyanət) etdiyinizi (yaxud nəfsinizə qarşı zəiflik göstərəcəyinizi) bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın; məscidlərdə ibadətdə (etikafda) olduğunuz zaman onlarla (qadınlarınızla) yaxınlıq etməyin. Bunlar (bu hökmlər) Allahın hədləridir, bunları aşmayın! Allah (insanlara) hökmlərini bu cür bildirir ki, bəlkə, müttəqi olsunlar!" (Bəqərə-187) Beləliklə, bildirildi ki, orucun vaxtı sübh açılandan gecəyə qədər, yəni gün batanadəkdir.

Oruc insanın niyyət edərək özünü orucu pozan şeylərdən (muftirat) saxlamasını (imsak) nəzərdə tutur. Oruc tutmaq istəyən adam "Vacib, qürbətən iləllah" (vacibdir, Allaha yaxınlaşmaq üçündür) deyə niyyət edir və sübh açılandan gün batanadək (sübh azanından məğrib azanınadək) yemir, içmir, ciyərinə tüstü almır, qadına yaxınlıq etmir, şəhvət doğuran şeylər etmir, sübh açılanadək cənabət halından təmizlənir, Allaha, Peyğəmbərə, İmamlara yalan deməkdən, əməli-salehlikdən yayındıran əməllərdən (yalandan, iftiradan, söyüşdən və sair) çəkinir.

Müsəlman alimləri belə hesab edirlər ki, hamilə və uşaq əmizdirən qadınlar, əldən düşmüş qocalar, ağılları başlarında olmadığına görə öz əməlləri üçün məsuliyyət daşımaq iqtidarında olmayan adamlar da orucdan azad sayılırlar, çünki, oruc tutmaq onların səhhətləri

üçün zərərli ola bilər. Aybaşı halında təmiz olmayan, təmizlənməyənə və təharətlərini almayana qədər oruc tuta bilməzlər. Müvəqqəti olaraq orucdan azad edilənlər, yaxud oruclarını təsadüfən pozanlar sonra buraxdıqları günlərin sayı qədər oruc tutmaqla yanaşı tövbə də etməli və kəffarə verməlidirlər.

Ramazan orucundan başqa ramazanda buraxılmış günlərin sayı qədər tutulan qəza orucu, müəyyən niyyətlə əhd edilmiş nəzir orucu, hansısa bir günahı yumaq üçün kəffarə orucu, yaxud sadəcə olaraq əməlisalehliyə görə tutulan oruc növləri məlumdur. Ramazan orucunu nəzir orucu ilə əvəz etmək, yəni nəzir orucunu ramazana saxlamaq düzgün deyildir. Başqa orucları da Ramazan orucu ilə qarışdırmaq olmaz.

### Alimlər oruc üçün üç dərəcə izah edirlər

**1. ÜMUMİ ORUC - (صوم العموم):** Ümumi orucun şərtləri adətən müctəhidlərin dini ehkamı izah edən risalələrində müfəssəl şəkildə (təfərrüatı ilə) yazılıb. Ümumi oruc dedikdə, adətən camaatın çoxunun tutduğu oruc nəzərdə tutulur və yeməli və içməli şeylərdən, eləcə də şəhvətə aid məsələlərdən çəkinmək anlamına gəlir.

**2. XÜSUSI ORUC - (صوم الخصوص):** Xüsusi oruc dedikdə, əlin, qolun, dilin, gözün, qulağın və sair üzvlərin günahdan çəkinməsi nəzərdə tutulur.

**3. Daha xüsusi (dərəcəli) oruc - (صوم خصوص الخصوص):** Dünyəvi arzuların və fikirlərin qəlbə daxil olmamasıdır. Qəlbin (ürəyin) orucudur. Masəvanın (Allahdan başqasının) qəlbə daxil olmasına izn verməməsidir. Belə bir oruc tutmağa nail olan şəxs Allahdan başqa (dünyəvi işlər barədə) düşünərsə orucu batil olur. Əlbəttə dini mənafeyi üçün düşünmək müstəsnadır. Çünki, dini düşüncə axirət azuqəsidir. Üçüncü növ orucu məhz peyğəmbərlər tuta bilər. "(Ya Rəsulum!) Sən: "Allah!" deyib çağır, sonra da onları burax ki, düşdükləri bataqlıqda oynaya-oynaya qalsınlar. (Özlərinin dedi-qodularında, pis işlərində və yaramaz əqidələrində davam etsinlər)." (Ənam-91)

Xüsusi oruc salehlərin tutduğu orucdur. Yəni bütün bədən üzvlərini günahdan qorunmalıdır. Əbu Hamid Ğəzali bu oruc üçün altı şərt izah edir:

**BİRİNCİ ŞƏRT:** İkrah doğuran (kərahətli) və məzəmmətli (töhmətli) şeylərə baxmamaq. İnsanı Allahın zikrindən saxlayan heç bir şeylə məşğul olmamaq. Hz.Peyğəmbər (s) buyurub: "(Naməhrəmə) baxmaq şeytanın zəhərli oxlarından biridir. Onu Allahdan (əzabdan) qorxduğu üçün tərk edən şəxsə Allah elə bir iman verər ki, qəlbində şirinliyini duyar.

Peyğəmbər (s) buyurub: "Beş xüsusiyyət orucu və dəstəmazı batil edər: yalan, qeybət, sözgəzdirənlik, şəhvani baxmaq (naməhrəmə ehtirasla baxmaq) və yalandan and içmək".

**İKİNCİ ŞƏRT:** Dili mənasız sözlər, yalan, qeybət, sözgəzdirənlik (xəbərçilik), söyüş, acı və xüsumətli danışıqdan qorumaq. Sükut etmək, dili Allahın zikri ilə məşğul etmək; Quran tilavəti və dua və münacatları oxumaq. Bu dilin orucudur. Rəvayətdə buyurulur ki, iki nəfər qadın oruc tutur. Peyğəmbər (s) onlara deyir: "Yediyinizi qaytarın-qusun" onlar da laxta-laxta qan və ət qaytarırlar. Hamı təəccüblə baxırdı. Peyğəmbər (s) buyurdu: Bu iki qadın Allahın halal etdiyini yeməyib oruc tutublar. Lakin Allahın haram etdiyini yeyib oruclarını açıblar." Qeyd edək ki, o iki qadın qeybət etmişdilər.

Əbi Bəsir İmam Sadiqdən (ə.s) nəql edir: "Oruc tutmaq təkcə yeməmək və içməməkdən ibarət deyil. Məryəm: "…Mən Rəhman yolunda oruc (sükut orucu) tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam!" (Məryəm-26) buyurdu."

**ÜÇÜNCÜ ŞƏRT:** Qulağın günahdan qorunması. İkrah doğuran heç bir şeyə qulaq asmamaq. Haram şeyləri dinləməmək. "Onlar yalana qulaq asanlar və haram yeyənlərdir…" (Maidə-42); "Kaş onların din alimləri və fəqihləri onlara günah söyləməyi və haram yeməyi qadağan edəydilər! Onların törətdiyi əməllər necə də pisdir!" (Maidə-63). Qeybətə qulaq asmaq da qeybət etmək qədər günahdır. (Haramdır). Qeybətə sükut etmək də haramdır. "…Çünki o vaxt siz də onların tayı olarsınız…" (Nisa-140)

**DÖRDÜNCÜ ŞƏRT**: Digər üzvlərin (məsələn: əl-ayaq) günaha mübtəla olmaması və qarınqululuq etməmək. İftar vaxtı tərəddüdlü yeməklərdən çəkinmək. Oruc, gün ərzində halal yeməklərdən, şam azanından etibarən haram yeməklərdən çəkinmək anlamına gəlir. İftar vaxtı haram yeməklərlə qarnını doyuran şəxsin orucu da batil olar. Haram yemək dini aradan aparan (dinsizliyə bais olan) zəhərdir. Halal yemək isə dərmandır. Əlbəttə halal yemək belə çox yeyilərsə mütləq zərərli olacaqdır. Yeməyin miqdarı azalsın deyə Allah orucu vacib etdi. İftardan sonra həddindən artıq qarına qulluq edən insan orucun faydasını duymaz. Hz Peyğəmbər (s) buyurub: "Nə çox oruc tutan vardır ki, oruc tutmağından ona



yalnız aclıq və susuzluq qalır"

كم من صائم ليس له من صومه الا الجوع و العطش

Hədis eynilə həzrət Əlidən (ə.s) də Nəhcül-Bəlağənin 146-cı hikmətində nəql olunub: "Nə çox oruc tutan vardır ki, oruc tutmağından ona aclıq və susuzluqdan başqa bir şey qalmır..." Bəzi alimlər bunun səbəbini belə izah edirlər ki, oruc tutan şəxs haram yeməklə iftar edərsə orucunun məhz aclıq və susuzluq kimi faydası olmuşdur. Bəziləri əsas səbəb kimi "qeybət"-i görürlər. Çünki, "...bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?!..." (Hucurat-12) Bu ayədən də məlum olduğu kimi qeybət etmək əslində ölmüş qardaşın ətini yemək deməkdir. Bədən üzvlərini günahdan qorumayan şəxs barəsində də bunu demək olar ki, o da orucunu məhz aclıq və susuzluqla keçirənlərdən hesab olunur. İmam Baqir (ə.s) buyurur: "Oruc tutduğun zaman, qulaq, göz, dəri və digər üzvlərin də oruc olmalıdır. Oruc tutduğun gün oruc tutmadığın gün kimi olmamalıdır."

**BEŞİNCİ ŞƏRT:** Bu şərt bundan ibarətdir ki, iftar vaxtı yeməyin halal olmasına diqqətlə yanaşı kəmiyyətcə (miqdarca) az yeməlidir. Yəni qarını yeməklə doldurmamalıdır. Allah yanında ən pis qab dolu qarındır. Ramazan ayının faydalarından biri də budur ki, insan bu ayda qarınquluqdan (yeyimcil olmaqdan) yaxasını qurtarır. Əgər iftardan sonra həddindən artıq yeyərsə (hətta gündüz yemədiyinə görə axşam çox yeməklə əvəzini çıxarsa) digər aylarda yediklərindən də çox yemiş olur. Ac qalmaqla nəfsani istəkləri (şəhvani meyilləri) söndürmək dərəcəsinə çatdıran oruc, iftardan sonra çox yeməklə o istəkləri yenidən artırmağa başlayır. Bu isə onun orucunun mənasız olduğunu göstərir. Qarın və şəhvəti ram etmək orucun başlıca səbəblərindən sayılır. Çox yemək isə şiddətli şəhvət hissi doğurur. Digər önəmli məsələlərdən biri budur ki, gün ərzində çox yatmamalıdır. Oruc tutan çox yatarsa aclıq və susuzluğunu hiss etməz. Bu da orucuna xələl gətirən əməllərdəndir. Deməli, beşinci şərt az yemək və az yatmaqdan ibarətdir.



**ALTINCI ŞƏRT:** İftardan sonra oruc tutanın qəlbi müztərib (sıxıntı və iztirab içində olan, çox təşvişli və rahatsız) halda qalmalıdır. Qorxu və ümid arasında olmalıdır. Çünki, orucu qəbul olduğundan Allaha yaxınlaşdığını yaxud qəbul olmadığına görə qəzəbə düçar olmuşlardan sayıldığını bilmir. Belə bir hal əslində bütün ibadətlərdən sonra yaşanmalıdır.

Belə bir sual ortaya çıxa bilər ki, sizin yazdığınız şərtlər fəqihlərin (müctəhid: dini qanunları təfsir və şərh etmək səlahiyyətinə malik baş ruhani) dini əhkamı izah edən kitablarında qeyd olunmayıb. Fəqihlər dini ayinləri və onun ehkamını yazarkən siz yazdıqlarınızı şərtlərdən hesab etməyiblər. Belə olduqda qeyd etdiyiniz şərtlər olmadığı təqdirdə orucun batil olmasını necə iddia edə bilərsiz!?

Onların cavabında deyirik ki, fəqihlər ibadətlərin zahiri şəraitini izah edir və adi insanların (camaatın əksəriyyətinin) başa düşdüyü tərzdə əhkamı onlar üçün isbatlayırlar. Amma camaatın başa düşə bilməyəcəyi şəraiti izah etmək onların vəzifəsi deyil. Bu iş "axirət alimləri"-nin öhdəliklərindən sayılır. Fəqihlər ibadətin şəraitini ibadətin səhihliyi üçün izah edirlər. Axirət alimləri isə ibadətin qəbul olub-olmamasında rolu olan batini şərtləri izah edirlər. Onlar deyirlər ki, oruc tutmaqda əsas məqsəd ilahi əxlaqa yiyələnmək və nəfsani və şəhvəti hisslərə qalib gəlməklə mələyə bənzəməkdir (mələkmənzər olmaqdır). İnsan Allaha məkanla deyil, sifətcə (keyfiyyətləri ilə) yaxınlaşır. Yəni şəhvəti hissləri azaldıqca bir o qədər Allaha müqərrəb (məhrəm, dost, çox yaxın, səmimi) olur. Amma təkcə yeməmək və içməməklə oruc tutanlar onlar qədər Allaha yaxın ola bilməz. Bu üzdən bəzi alimlər deyiblər: "Bəzi oruc tutanlar ("muftir"-dir) əslində oruc tutmayıblar. Bəzi "muftirlər" (zahirən oruc tutmayanlar) əslində həqiqi oruc tutanlardır. Zahirən oruc tutmayıb, amma oruc olanlar bütün bədən üzvlərini günahdan qoruyan və yeyib-içən şəxslərdir. Amma zahirən oruc sayılan, amma həqiqətdə orucları batil olanlar yemək və içməkdən çəkinən amma bütün varlığı ilə günahkar olanlardır."

Ən yaxşı (fəzilətli) oruc (və digər ibadətlər) budur ki, həm zahiri qanunlara (şərtlərə) riayət olunsun, həm də batini şərtlərə əməl olunsun. Başqa sözlə desək, oruc tutan şəxs orucu batil edən şeylərdən çəkindiyi kimi orucun qəbul olmasını əngəlləyən şeylərdən də çəkinməlidir. Hz. Peyğəmbər (s) buyurur: "Oruc əmanətdir. Sizlərdən biriniz əmanəti qorusun!" "Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı... əmr edir...." (Nisa-58). Oruc tutan şəxs bilməlidir ki, göz, qulaq, dil və sair üzvlərin hamısı əmanətdir və əmanəti qorumaqda əllərindən gələni etməlidir.

Yazıda istifadə olunan əsas mənbə "Ehyau ulumid-din" kitabıdır. Əbu Hamid Ğəzali (vəfatı: 505 hicri-qəməri təqvimi ilə) "Ehyau ulumid-din" kitabının birinci cildində (səh: 324-335) "Orucun sirləri kitabı" ünvanlı, üç fəsildən ibarət oruc barədə maraqlı məlumatlar (təlimlər) yazmışdır.

Molla Sədra (Sədruddin Şirazi) (vəfatı: 1050 hicri-qəməri təqvimi ilə) "Usuli-kafi" kitabına yazdığı şərhdə (birinci cild səh: 491-495) Ğəzalinin yazdığı "orucun sirləri"-ni nəql və şərh edir. Biz də hər iki dəyərli əsəri oxuduq, (qısa əlavələr və müxtəsər dəyişikliklər etməklə) tərcümə etdik və oxuculara təqdim edirik. Allah orucunuzu qəbul eləsin!

Hazırladı: Ə. Şəhriyar

# PAK VƏ HALAL RUZİ NƏDİR?

## Quranda gəlibdir ki, insanın rizqi və ruzisi halallıqdan əlavə pak da olmalıdır. Halal ilə pakın arasında nə fərq var?



**"Təyyib" kəlməsi sihahul-lüğətin nəqlinə əsasən pak şeylərə deyilir.** İbni Mənzurun bu mənanı qəbul etməklə etiqadı var ki, təyyib geniş mənada işlənir və müxtəlif yer-lərdə münasib mənanı çatdırır. Yer pakdır deyiləndə məqsəd o yerdir ki, otların əkilməyi üçün münasibdir. Pak küləkdən məqsəd mülayim küləkdir ki, şiddətlə əsmir. Pak təam yəni halal yemək. Pak qadın yəni ismətli və həyalı. Quranda " الطَّيِّباتُ لِلطَّيِّبينَ وَ الطَّيِّبُونَ لِلطَّيِّبات" həmin mənadadır.[2]

Qamusi Quran kitabını yazan təyyib kəlməsini ürəyə yatan və insan təbiəti bəyənən məna edibdir. Rağib İsfəhani deyir: Təyyibin əsli odur ki, insanın hisləri və nəfsi ondan ləzzət apara və pak etməyə istitabə deyirlər: Çünki bir şeyi pak etmək o şeyin ürəyə yatan olmasına səbəb olur.

O Qurandan bir neçə ayəni bəyan etməklə bu mənanı izah edir, o cümlədən bu ayəni:

" يا أَيُّهَا النَّاسُ كُلُوا مِمَّا فِي الْأَرْضِ حَلالًا طَيِّباً وَ لا تَتَّبِعُوا خُطُواتِ الشَّيْطانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ" Ey camaat! Yer üzərində halal və pak olan şeylərdən meyl edin və şeytanın vəsvəsələrindən tabeçilik etməyin çünki o sizin aşkar düşməninizdir.[3]

Qamus sahibi deyir: Yeməyin iki şərti var: Biri halal olması ki, onda başqalarının haqqı olmasın, ikincisi isə onun ürəyə yatan olmasıdır ki, insan ondan nifrət etməsin: Natəmizlik kimi və...

Əgər halalı bütün şəraitiylə şəri halal bilsək, gərək başqa ayələrdən və rəvayətlərdən istifadə edək. Əks halda halal deyəndə bu başa düşülür ki, başqalarının haqqı onda olmasın və yaxud başqalarına maneçilik olmasın. Şeytanın vəsvəsələrindən tabeçilik zahirən halal və təyyibə təcavüz deməkdir.

Bu ayədən istifadə olur ki, hər hansı şey ki, ürəyə yatır və başqalarının haqqı deyil onu yemək olar.

Ayədə təyyibat və xəbaisdən məqsəd, həqiqi paklıq və həqiqi natəmizlikdir və onların ölçüsü təkcə camaatın nəzəri deyil; bu cəhətdən şəriətdə haram olan şey, onun həqiqi natəmizliyinə görədir. Baxmayaraq ki, ürfdə natəmiz sayılmasalar da; Zina və iffətsizlik kimi ki, mümkündür zahirdə bəziləri onu natəmiz bilməsinlər. Habelə İslami şəraitdə kəsilməyən heyvan və həşərələrin, yırtıcıların ətləri ki, camaatın bir çoxunun əqidəsinə görə natəmiz deyillər; amma bunların hamısı həqiqətdə natəmizdirlər; bu cəhətdən haramdırlar. Şəriətdə haram buyurulmuşlar həqiqətdə natəmizdirlər ki, başər onların bəzisinin natəmizliyinə əl tapmayıb.[4]

---

[1] - Cöhəri, İslamil ibni Himad, Əssihah, cild 1, səh 173, Darul- elm, Beyrut, 1410 hicri qəməri.

[2] - İbni Mənzur, Lisanul- ərəb, cild 1, səh 563, dar Sadir, Beyrut 1414 hicri qəməri.

[3] - Bəqərə surəsi, ayə 168.

[4] - Bax: Qorşi, Seyyid Əli Əkbər, Qamusi Quran, cild 4 səh 257 sual 261, darul- kutubul- İslamiyyəh, Tehran, 1371 hicri şəmsi.

# BƏZƏN GƏNCLƏR HANSI SƏBƏBDƏN ATEİST VƏ DEİST OLURLAR?

**Bu məqalədə cəmiyyətimizdə indiyə qədər əlaqədə olub, söhbətləşdiyimiz ateist şəxslərlə görüşlərin, müzakirələrin, müşahidələrin nəticəsi olaraq yuxarıdakı suala cavab verməyə çalışdıq. Gerçək olan budur ki, bir teist-dindar kimi mən və mənim dostlarımı son zamanlar narahat edən bir mövzulardan biri də budur ki, Azərbaycanımızda və digər müsəlman ölkələrində insanlar, xüsusəndə gənclər niyə atezimə və deizmə bu qədər meyl edir, yönəlir və öz ailə nəsillərinin sahib olduğu inancdan üz döndərirlər?. Bu məqalədə bu suala ibtidai və hamının başa düşəcəyi bir formada, qəliz terminologiyadan uzaq bir şəkildə qısa və konkret cavablar hazırladıq.**



**GƏNCLƏR NİYƏ ATEİST VƏ DEİST OLUR? CAVABLAR:**

1. Birinci səbəb budur ki, yetkinlik yaşına çatan və artıq düşüncəsi azad bir şəxsiyyət olaraq formalaşan gəncdə daxili müvəqqəti və keçici bir üsyan hissi baş qaldırır. Bu üsyan onun indiyə qədər bildiyi, öyrəndiyi hər şeyə qarşı yönələ bilir və qarşısına çıxan istənilən metafizik məlumatı yalan sayacaq qədər güclü olur. Psixoloqlar bu dövrü çox həssas bir dövr adlandırırlar. Çünki bu yaşlarda gənclərdə düçüncə püskürməsi baş versə də, lakin bu düşüncə tələbatını qarşılayacaq elm, məlumat olmadığı üçün gənclər inkara meyillənir və düşdükləri düşüncə burulğanından, ilahi varlıq barədə bildiklərini inkar edərək qurtaracaqlarını zənn edirlər.

2. İkinci səbəb budur ki, gənclərdə yaranan bu düşüncə burulğanı və onun yaratdığı Allah barədə çoxlu sayda suallar cavabsız qalır, bu gənclər ya öz suallarını ətrafda olan tanışlara ictimai qınaqdan qorxduqları üçün bildirməkdən çəkinirlər və yaxud da onların ətrafında bu sualları cavablaya biləcək bir şəxs olmur. Bu cavabsız qalan sualların ardınca gələn digər suallar inadı və inkarı bir az da gücləndirir . Gənc isə bu sualları tanıdığı birinə bildirdiyi zaman ya tənqid, ya istehza, ya çox bayağı bir cavab və yaxudda ciddiyə alınmama ilə qarşılaşır və bununlada Allaha olan inam zəifləyir.

3. Üçüncü səbəb budur ki, gənclər adətən hamıdan daha çox kefə, əyləncəyə, günaha, intim münasibətə meyilli olurlar. Adətən Allah qorxusu, dini qayda-qanunlar, günah, cəza, cəhənnəm və digər məsələlər bir gəncin pak bir fitrətinin günah əyləncəyə tərəf getməsinə mane olur. Dinin mahiyyəti barədə kifayət qədər məlumatı olmayan, dinin əyləncəyə qarşı olduğunu düşünən gənc isə fikirləşir ki, din onun sərbəstliyin, azadlığın əlindən alır. Buna görə də rahat günah edib, rahat əylənməsi, öz valideynlərini və yaxınlarını rahat şəkildə aldatması üçün ən asan varinatı seçərək, Allahın və ya dinin varlığını inkar edir. Bir neçə din əleyhinə yazılmış məqaləni oxuyaraq və fikirlərə qulaq asaraq öz vicdanını susdurmağa çalışır və fikrini dinin əleyhinə olaraq formalaşdırır.

4. Dördüncü səbəb budur ki, bu gün müsəlman cəmiyyətlərində gənclərlə, uşaqlarla işləyəcək dini məlumatlarla malik psixoloqları yox səviyyəsindədir. Buna görə də din psixoloqu və dinlə, Allahla bağlı ilkin məlumat vermək vəzifəsi bu gün ilk olaraq valideynlərin öhdəsinə düşür. İndi nəzərə alsaq ki, valideynlərin əksər böyük hissəsi komunist dönəmində oxuyan pionerlər olub, dindən anlayışları olduqca azdır, dinə zahirən əməl edən deyillər, bu zaman o gənclərin halını müəyyən etmək çətin deyildir. İnsana ən yaxın şəxs olan ata və ananın insana çox uşaq yaşında, uşağın bilik səviyyəsinə uyğun formada, Allah barədə məlumat verə bilməməsi və uşağın bu barədə olan suallarına çox laqeyid və diqqətsizcəsinə göstərdiyi münasibət səbəb olur ki, insanda çox gənc yaşlarından ateist fikirlərin təməli qoyulur.

5. Beşinci səbəb budur ki, məktəblərdə tədris olunan tarix, anatomiya fənlərində darvinizmin, təkamül nəzəriyyəsinin tədris olunması və insanın Adəm və Həvvadan deyil, insana bənzər meymundan əməllə gəlməsi fikri gənclərin zehnində özünə məxsus formada yer edir. Sonrakı illərdə gəncin atesit fikirlər üçün aldığı ilham çox zaman məhz məktəb dərsliklərində olan bu tip yanaşmalar olur.

6. Altıncı səbəb budur ki, bu gün müsəlman cəmiyyətlərində atezmin təbliğatı artıq son dərəcə çoxalıb və hər evə daxil ola biləcək formada artıb. Sosial şəbəkələrdə, auditoriyalarda, saytlarda Allah və din əleyhinə yerləşdirilən materiallar düşüncəsi zəif və ya özünü azad hiss etmək istəyən xəyalpərəst gənclərin beynini zəhərləyir.

7. Yeddinci səbəb budur ki, ateizm barədə məlumat alan, Allahın inkarı barədə fikirləri qəbul edən bir gənc çalışıb dinə, Allaha olan iradlarına və dinə qarşı olan suallarına cavab olaraq öz səviyyəsində araşdırma aparmır, savadlı, intelektual səviyyəli ilahiyyatçılardan bu barədə heç nə soruşmur, teizm barədə məqalə və kitablarla maraqlanmır və din fəlsəfəsi ilə tanış olmur. Yalnız kor tutduğunu buraxmaz misalına uyğun olaraq, beş üç çürük dəlilə əsaslanaraq dinə və Allaha inamını itirir.

8. Səkkizinci səbəb budur ki, bu gün ateistlik sanki bir ictimai elit səviyyə, prestij hesab olunur. Bəzi məlumat mərkəzlərindən cəmiyyətə elə təqdim olunur ki, din və dini qayda-qanunlar köhnəlik və köləlik qalıqlarıdır. Şüuraltımıza yeridilərək, ictimai bir rəy yaradılmağa çalışılır ki, dinə riayət edərək yaşamaq bu günkü dövrün normativlərinə uyğun deyil və bu əsrin insanı dinsiz yaşamalı, Allahsız bir sərbəst, azad həyat sürməli, xətri nə istədisə onu da etməlidir. Qısacası bir heyvani həyat tərzini bəzəyərək elit bir həyat tərzi kimi təqdim edir və düşüncəsi dayaz, zəif və şüurunda yalnız və yalnız boş, mənasız əyləncə olan gənclər isə bu tip həyat tərzini onların nəfslərinə uyğun olduğu üçün sevə-sevə qəbul edirlər.

9. Doqquzuncu səbəb isə bu gün dini-elmi cameədə dinə yönəlmiş ateist və deist suallarına çox az bir formada cavab hazırlanır, hazırlanan cavabların əksəri şablon və çox keyfiyyətsiz cavablar olur. Bəzi ilahiyyatçılar isə ateist və deistlərlə hər hansı bir elmi mübahisəni, müzakirəni faydasız və mənasız görür. Bu da olduqca yanlış bir fikirdir. Mənasız və nəticəsiz görsənsə də belə sualların və iradların cavablandırılması mütləq formada vacibdir. Burada çox dahi müsəlma mütəfəkkiri Mürtəza Mütəhhərinin bir sözünü qeyd etmək istərdim ki, o buyurur:

- İslamda cavabsız qalan sual yoxdur, sadəcə bəzi suallara cavab verməyi bacarmayan bəzi tənbəl din xadimləri mövcuddur.

Qəbul etmək çətin olsa da bu gün ölkəmizdə və digər müsəlman ölkələrində İslam fəlsəfi və əqli məktəbinin inkişafı çox zəif gedir və bu zəiflikdən dolayı da atezim və deizm ideologiyası özünə ciddi rəqib görmür. Lakin bu heç də ateistlərə və deistlərə cavab verilməməsi anlamına gəlməməlidir. Lazım olan qədər olmasa da müəyyən qədər cavab vardır və araşdırma üçün kifayət edər.

10. Onuncu səbəb budur ki, ali təhsil müəssisələrində yetərincə atest təfəkkürlü və ya dinə qarşı çox aqressiv mövqe tutan müəllimlər mövcuddur. Onlar çox məharətlə, söz oyunu quraraq, elmi dinə qarşı qoyaraq cavan və məlumatsız gəncləri ateizm adlı bəlaya yoluxdura bilirlər.

11. On birinci səbəb budur ki, ateistlər çox zaman inadkar və qərəzli bir mövqeyə sahib olurlar. Əksər ateistlər həqiqəti tapa bilmədikləri üçün deyil, həqiqətdən qorxduqları və dinə çox mənasız və ucuz səbəblərdən düşmən olduqları üçün Allahı və dini inkar edirlər. Beləlri ilə mübahisə zamanı hiss edirsən ki, onlar qarşı tərəfə, inanclı insanlara, dinə hörmət qoymağı bacarmır, məqsədli şəkildə, sanki öncədən "nə olur olsun mən deyən düz olmalıdır" məntiqi ilə ilə mübahisəyə daxil olurlar.

12. On ikinci səbəb isə budur ki, dindar, inanclı insanların içərisində də ateist və deistlərə qarşı olan kəskin, sərt və aqressiv mövqe ortaya qoyanlar vardır. Sağlam, əxlaqi formada müzakirə etmək, qarşı tərəfə tam qulaq asıb açıq dəlil ortaya qoymaq əvəzinə, iş dolaşığa düşdüyü zaman lənət, aqresiya, təhqir sərgilənir. Bu da təbii olaraq dindən və Allahdan küsənləri birazda inadkarlaşdırır, qərəz və düşmənçiliklərini artırır. "Bilmirəm" demək eyib deyil, bilmədən mübahisəyə girib, məğlub olub, təhqir və lənət demək eyibdir.

13. On üçüncü səbəb budur ki, teist və dindarlar arasında olan mübahisələr çox zaman düzgün formada təşkil olunmur və mübahisə mövzusu barədə hər iki tərəf fikirlərini anlaşılan formada çatdıra bilmir. Burada diqqətinizi bir məqama çəkmək istəyirəm ki, əziz oxucular, yalnız başqa bir ateisti təqlid edərək ateist olmuş şəxslə yalnız cəmiyyətə xatir dindar olmuş, dini və əqidəni sağlam ağlı ilə deyil, kimlərinsə təqlidi ilə qəbul edən bir dindar arasında keçən mübahisədən heç bir xoş nəticə əldə oluna bilməz. Mübahisənin əsas şərti budur ki, hər iki tərəf də öz ideologiyasına qarşı inam olsun.




14. On dördüncü səbəb isə budur ki, əksər şəxslər dinin bəzi hökmlərinə, Peyğəmbərin bəzi davranışlarına və Qurani-Kərimdə səsləndirilən bəzi fikirlərə qarşı iradlı mövqe tutaraq ateist olur. Yəni cənab ateistlər Quranda yazılmış bəzi mövzuları humanizmə zidd hesab edir, Peyğəmbərin bəzi davranışlarının, möcüzələrinin elmi, məntiqi əsası olmadığını iddia edir və tələskənliyə yol verirlər. Bütün bunların hər birinin özünəməxsus cavabı olasa da çox təəssüf ki, bir çoxları bu cavablarla tanış olmadan inadkarlıqla dinin yanlış olması barədə fikir irəli sürürlər.

Bu məqalədə yazılanlar barədə əziz inanclı insanları və hörmətli ateistləri bir daha düşünməyə dəvət edirik. Əgər həqiqəti axtarırıqsa o zaman gəlin biri-birimizə sevərək kömək edək.

Bəşir Mənsurov

# İSLAM DÜŞÜNCƏ AZADLIĞINA QARŞIDIRMI?

## Allaha inanmayanla Allahı inkar edənin fərqi nədir?

**Bu günkü zamanda mövcud olan neo-atesitlər hesab edirlər ki, dində düşüncə və fikir azadlığı yoxdur. Çünki din Allaha inanmayan insanlara qarşı öz mövqeyini kəskin formada ortaya qoyaraq, onları kafir, azğın və təkamül yolundan çıxmış fərdlər hesab edir. Görəsən həqiqətənmi DİN DÜŞÜNCƏ AZADLIĞINI MƏHDUDLAŞDIRIR???**

Bu iddiaya bizim cavabımız belə olacaq ki, əslində din düşüncə azadlığına qarşı deyil, tam əksinə düşüncənin azad olmasına, düşüncə asıllığından, sürü psixologiyasından xilas olmağa və sərbəst olaraq düşünməyə çağırır. Bu misalı demək kifayətdir ki, İslamın əqidə əsaslarında, yəni üsuliddində hər hansı bir alimi təqlid etməyi, "filan alim deyir Allah var, mən də buna görə deyirəm ki, Allah var" düşüncəsini qadağan edir və fərdə sərbəst olaraq araşdırma aparmağı və öz əldə etdiyi nəticə əsasında Allaha inanmağı tövsiyə edir. Həqiqətdə isə düşüncə azadlığına qarşı olanlar elə inkarçı ateistlərin özləridir.

Burada hamımızın diqqət etməmiz lazım olan çox incə bir fərq var. Bu fərq ondan ibarətdir ki, Allaha inanmayan ideologiya ilə Allahı inkar edən ideologiya tam fərqli anlayışlardır. Burada aydın olur ki, əslində Allaha inanan biri ilə inanmayan biri arasında təzad sadəcə eyni mövzu üzərində olan zidd fikirlərdir, burada başqa bir ciddi problem yoxdur. Lakin Allaha inanmayan şəxslə Allahı inkar edən şəxs kəskin fərqlənirlər. Çünki ola bilər ki, birisi heç Allah barəsində, Allahın olub-olmaması barədə düşünmür, amma Allahı inkar edən birisi isə Allah barədə düşünür və olmadığını iddia edir. İslamın Allaha inanmayan şəxslə bir problemi yoxdur. Çünki bu cür insanlar adətən düşüncə dayazlığı və ya hər hansı təbii səbəblərdən əziyyət çəkir və dərin mövzular barədə düşünmürlər. Onları bir müddət tovhidə aid təlimlər ilə tanış etdikdən sonra əgər sağlam ağıla və qərəzsiz düşüncəyə ma-likdirlərsə, bu zaman Allahın varlığına inanır və səmimi müsəlman ola bilirlər. Bəzən hətta illərin təkallahlıq düşüncəsinə sahib olan insanlarda belə Allahın varlığına qarşı şübhə yaranır, inam zəifləyir. Lakin bu o qədər də təhlükəli hal deyil, bu hal bir həyəcan siqnalıdır və insanı xəbərdar edir ki, Allahın varlığına inanmaq üçün arqument çatışmamazlığı və ruhi pozuntu var. İnsanda bu hal yarandığı zaman mütləq kəlama, əqidəyə, teizmə aid mövzularda öz səviyyəsində araşdırma aparmalı, özündən elmli şəxslərdən öz şübhələrinə dəqiq cavablar istəməli və məntiqə uyğun cavab aldıqda qane olmalıdır. Həyatda Lev Tolstoy kimi bir çox dahilərin gənclik dövrlərində Allaha inanmadıqları vaxtlar olub. Lakin sonradan qazandıqları elm, təcrübə və düzgün analiz bacarığı sayəsində Allahın varlığına inanan şəxslərə çevriliblər.

İslam kafir dedikdə isə Allaha inanmayanı, bu barədə araşdırma apara bilməyəni deyil, Allahı inkar edən, onun yoxluğuna dair heç bir düzgün dəlil olmadığı halda dəlil gətirməyə çalışanları və açıq aşkar Allahla,

dinlə düşmənçilik edənləri nəzərdə tutur.

Allahı qəbul edən insanlar müəyyən dəlillərə əsasən Allahın var olduğunu deyir, Allaha inanmayan şəxslər isə Allahın olub-olmamasına dair heç bir dəlili olmadığı üçün sadəcə inanmır. Amma görəsən Allahın varlığını inkar edənlər hansı dəlilə əsasən bu sözü deyirlər?

Yoxsa ki, Allahı inkar edənlər bu əzəmətli kainatda mövcud olan hər şeyin izahını tapıb və Allahdan heç bir əsər görməyiblər? Bəlkə bu insanlar artıq elə bir həddə çatıb ki, onlar kainatdakı, təbiətdəki bu qədər dəqiq nizam intizamın niyə bu qədər dəqiq və dəyişməz olduğunu isbatlaya biliblər? Təbii ki, Allahı inkar edənlərin də özlərinin gətirdiyi arqumentlər və dəlillər vardır. Bu dəlillərə ötən məqalələrdə qısa da olsa cavab verməyə çalışmışıq.

Misal olaraq fərz edək ki, üç nəfər hər gün daxil olduqları otağa daxil olur və orada bir yeni əşya görürlər. Bu zaman birinci şəxs deyir ki, bu əşyanı qonşu gətirib. Çünkü



mən bu əşyanı onlarda görmüşəm və ən yaxın ehtimal budur ki, bunu o gətirib. İkinci şəxs deyir ki, mən bu barədə heç nə deyə bilmərəm və qonşunun gətirdiyinə də nəsə inanmıram. Üçüncü şəxs isə deyir ki, xeyir bu əşyanı bura qətiyyən heç kim gətirməyib, yəni öz-özünə peyda olub.

Burada birinci tərəf ən sağlam dəlilləri təftiş edərək, sağlam məntiqə ən yaxın bir cavabı səsləndirir. Bu Allaha inanan bir kimsədir. İkinci şəxs isə fikirləşmədən bu barədə heç bir fikri olmadığını deyir, çünkü onun öncədən bu əşya və qonşu barədə məlumatı olmayıbdır. üçüncü şəxsin fikri isə ən yaxşı halda sadəcə məntiqsizlikdir. Əşyanın buraya canlı, diri bir kimsə tərəfindən gətirilib qoyulduğu sağlam ağıla uyğun olduğu halda, onu gətirəni inkar etmək və cansız əşyanın özünün burda öz başına peyda olmasını demək nə qədər məntiqə uyğundur. Allahı inkar edənlərdə eyni ilə bu cür düşünürlər. Onlar deyir ki, Allah yoxdur, bəs yaxşı görəsən nəyə əsasən?

Allahı inkar etmək o halda məntiqli olar ki, insan kainatdakı hər bir nəticənin, hər bir hadisənin barəsində Allaha aid olmayan bir izah verməyi, cavabı elmə məlum olmayan bütün sualların cavabını verməyi bacarsın. Sübut etsin ki, həqiqətən də şüura, vicdana, hisslərə malik olan canlı varlıqlar əslində heç bir şüuru olmayan cansız təbiət tərəfindən yaradılıb. Buna da izah verməyi bacarsın ki, həqiqətən də bütün bu nizamlı hərəkətləri, göy cisimlərinin xüsusi qanunauyğun olan hərəkət traeoktoriyasını nizam qanunundan xəbəri olmayan bir cansız və şüursuz təbiət yaradıb. Əgər bu iradın qarşılığında Allahı inkar edən şəxs desə ki, təbiət şüurludur, kamildir və canlıdır, o zaman o özü də bilmədən Allahın varlığına artıq inanır. Sadəcə bizdən fərqli olaraq o mütləq kamil olan varlığa Allah deyil, təbiət deyə müraciət edir. Lakin o təbiəti cansız və şüursuz hesab edərsə o zaman Allahı inkar etmək məntiqsizlik və qərəzdən başqa bir şey deyildir.

Buradan belə bir kiçik nəticəyə gəlirik ki, əgər insanın qəlbində həqiqətə, doğruluğa azacıq belə meyl olarsa o zaman o kainatda və bütün təbiətdə sirli varlıqlar, dərin nizam-intizam, uyğunluq və beyni dağıdan suallar barədə düşünərək, axtarış aparacaq. Lakin Allahı inkar edən ateist isə birbaşa olaraq düşüncə, araşdırma düşmənidir və Allahın varlığı barədə bu qədər ciddi dəlilin olmasına rəğmən, onları görməməzlikdən gələrək, gözün yumaraq, yalnız və yalnız inkar yolunu seçmək əslində düşüncəni nməhdudlaşdırmaq və qərəzli, anormal bir yanaşmaya sahib olmaq deməkdir.

Ən sonda qeyd edək ki, Allahı inkar edən kəslərin, mütləq varlığı dərk edə bilməmələrinə səbəb olan amillərdən biri də ağıllarının gücləri çatmamağı və dərk etməyin onlara sərf etməməsidir.

Bəşir Mənsurov



# ÖVLİYALAR ÖLÜM AYAĞINDA

## KİM ÖLÜMÜ ÇOX YADA SALDISA, DÜNYAYA ƏSİR OLMADI...

**Ölüm kafir və zalımlar üçün cəhənnəmə, mömin və təqvalılar üçün behiştə bir qapıdır. Peyğəmbər (s) və məsum imamların, eləcə də onların həqiqi ardıcıllarının ölümdən sonrakı həyata etiqadı elə bir həddə olub ki, daim ölüm intizarında olublar.**

İlahi peyğəmbərlər, imamlar, övliyalar və rəbbani alimlərin ölüm ayağında yaşadığı hislər onların ölümdən sonrakı həyata əminliyindən danışır. Ölüm qorxusunu candan çıxarmaq üçün ən düzgün yol axirət həyatına inamı gücləndirməkdir. Əbədi həyata inananların ölüm astanasındakı durumları ibrətamizdir.

### İslam peyğəmbəri (s)

İslam peyğəmbəri (s) ölüm yatağında idi. Həzrət ömrünün son dəqiqələrini yaşayırdı. Qəfildən qapı döyüldü. Xanım Fatimə (s.ə) qapı arxasındakı şəxsin kimliyini soruşdu. Səs eşidildi ki, mən bir qəribəm, Allah Rəsulunun görüşünə gəlmişəm. Xanım Fatimə (s) buyurdu: “Allah səni bağışlasın, geri qayıt. Allahın Rəsulu xəstədir.” Həmin şəxs getdi, bir müddət sonra yenidən qayıtdı, növbəti dəfə Peyğəmbərlə (s) görüş üçün icazə istədi. Bu zaman Peyğəmbər (s) xanım Fatiməyə (s.ə) buyurdu: “Fatiməcan! Bilirsənmi o qərib kimdir? O izdihamı dağıdan, ləzzətləri unutduran kəsdir. O ölüm mələyidir. And olsun Allaha, məndən başqasının ruhunu almaq üçün icazə almayıb və almayacaq. Allah yanında məqamıma xatir icazə istəyir. İcazə ver, otağa daxil olsun.” Həzrət Fatimə (s.ə) buyurdu: “Allah sənə mərhəmət buyursun. Otağa daxil ol.” Əzrail nəsim kimi aramcasına otağa daxil oldu. Peyğəmbər (s) əhlini salamladı və həzrət Peyğəmbərin (s) ruhunu ərşi-əlaya qaldırdı.

### Həzrət Süleyman (ə)

Həzrət Süleymanın ölüm məqamı çatan zaman o səhabələrinə buyurdu: “Allah mənə kimsəyə vermədiyi bir mülk verdi. Küləyi, insanları, cinləri, heyvanları, quşları hökmümə tabe etdi. Mənə quşların dilini öyrətdi, bütün nemətlərdən əta buyurdu. Sarayın banına çıxıb, məmləkətimə baxmaq istəyirəm. Arxamca kimsə gəlməsin.” Əsasını əlinə alıb, qəsrinin ən yüksək nöqtəsinə qalxdı. Göz işlədikcə məmləkətə nəzər saldı. Allahın ona verdiklərindən ürəyi açıldı. Birdən yanında xoş simalı gənc gördü. Dedi ki, səni buraya kim buraxıb?



Həzrət Süleyman tək qalmaq istəyirdi. Gənc dedi: “Bu qəsrin sahibi olan Allah mənə icazə verib.” Süleyman buyurdu: “Qəsrin Rəbbinin haqqı var. Sən kimsən?” Gənc dedi ki, o ölüm mələyidir. Süleyman onun gəlişinin səbəbini soruşdu. Ölüm mələyi dedi ki, sənin ruhunu almağa gəlmişəm. Süleyman dedi: “Sənə əmr olunan işi yerinə yetir. Bu gün istədim qəlbim açılsın. Allah isə mənim sevincimi Öz görüşündə qərar vermək istədi.” Ölüm mələyi həzrət Süleymanın ruhunu aldı. Qarışqalar Allahın əmri ilə Süleymanın əsasını yeməyə başladılar. Yalnız yerə yıxıldığı zaman ətrafdakılar həzrət Süleymanın dünyadan getdiyini başa düşdülər.

### Həzrət İbrahim (ə)

Allah-Taala həzrət İbrahimin ruhunu almaq istədiyi zaman ölüm mələyini onun sorağına göndərdi. Ölüm mələyi İbrahimin görüşünə gəlib, salam verdi. İbrahim dedi: “Salam olsun sənə, ey ölüm mələyi. Məni Allahıma doğru dəvət etməyə gəlmisən, yoxsa ölüm xəbəri gətirmisən?” Əzrail dedi: “Gəlmişəm ki, səni öz razılığınla Rəbbinə doğru aparım. İbrahim sual verdi: “Dostun öz əziz dostunu öldürdüyünü görmüsənmi?” Əzrail İbrahimin bu sözlərini Allaha çatdırdı. Allah buyurdu: “İbrahimə de ki, mehriban aşiqin məşuqla görüşdən qaçdığını görübmü?” İbrahim bu sözləri Əzraildən eşidib dedi: “Həqiqətən də həbib məhbubu ilə görüş iştiyaqındadır.”

## Həzrət İdris (ə)

Həzrət İdris daim oruc olardı, dünyaya heç bir bağlılığı yox idi. Onun ibadətləri mələkləri təəccübləndirirdi. Nəhayət, bir gün ölüm mələyi İdrisi görmək üçün Allahdan icazə istədi. Ölüm mələyi insan simasında İdrisin görüşünə gəldi. İdris onu süfrəyə dəvət etdi. Mələyin süfrəyə əyləşmədiyini görüb, onun kim olduğunu soruşdu. Əzrail ölüm mələyi olduğunu bildirdi və dedi ki, İdrisin ziyarətinə gəlib. İdris Əzraildən onun ruhunu almasını istədi. Əzrail dedi ki, bu yalnız Allahın əmri ilə mümkündür. Bu zaman Allah ölüm mələyinə əmr etdi ki, İdrisin ruhunu alsın. Əzrail İdrisin ruhunu aldı və Allah həmin an onu yenidən həyata qaytardı. Əzrail soruşdu ki, ölümü necə gördün? İdris ölümün çox ağır və dəhşətli olduğunu dedi. Ölüm mələyi sual verdi: "Bəs nə üçün ölmək istədin?" İdris dedi: "Ölümün çətinliyini dadıb, ona hazırlaşmaq istədim."

## Həzrət Musa (ə)

Həzrət Musanın ömrü sona çatanda Əzrail onun görüşünə gəlib dedi: "Salam olsun sənə ey Musa!" Musa Əzrailin salamını alıb, onun kim olduğunu soruşdu. Əzrail ölüm mələyi olduğunu dedi. Musa onun nə üçün gəldiyini soruşdu. Əzrail onun ruhunu almaq üçün gəldiyini söylədi. Musa soruşdu ki, ruhumu hansı əzamdan çıxaracaqsan? Əzrail cavab verdi ki, ağzından. Musa dedi: "Mən bu ağızla Allahla söhbət etmişəm. Nə üçün ağzımdan?" Əzrail dedi: "Əllərindən çıxararam." Musa dedi: "Mən bu əllərlə Tövratı götürmüşəm." Əzrail dedi ki, gözlərindən çıxararam. Musa dedi: "Mənim bu gözlərim Allahın rəhmətinə dikilib." Bu dəfə Əzrail Musanın ruhunu ayaqlarından çıxaracağını dedi. Musa dedi: "Mən bu ayaqlarla Tur dağına münacat üçün getmişəm." Əzrail dedi ki, onda canını qulaqlarından çıxararam. Musa dedi: "Mən Allahın sözlərini bu qulaqlarla eşitmişəm." Allahdan hökm gəldi ki, ey Əzrail Musa nə vaxt istəsə, o vaxt onun canını alarsan. Bir gün Musa bir şəxsin qəbir qazdığını gördü. Ona kömək təklif etdi. Kişi Musanın təklifini qəbul etdi. Qəbir qazılıb qurtarandan sonra Musa qəbirə uzandı ki, onun düzgün ölçüdə qazıldığına əmin olsun. Həmin an Allah onun gözündən pərdəni qaldırdı və Musa özünü behiştdə gördü. Allahdan istədi ki, onun ruhunu alsın. Əzrail Musanın ruhunu alıb həmin qəbri torpaqladı. Əslində qəbir qazan kişi Əzrail özü idi.

## Həzrət Peyğəmbər (s) buyurur:

Ölümdən qaçmaq mümkün deyil. O hər kəsə öz azuqəsini qaytarır. Axirət istəyənlərə asayiş və rahatlıq, dünya istəyənlərə bədbəxtçilik və peşmançılıq gətirir.

Möminin dünyadan gedişi uşağın qaranlıq ana bətnindən işığa çıxması kimidir.

Ölüm mömin üçün ətirli çiçəyi qoxlamaq kimidir.

Mömin bəndə Allahın rəhmətinə qovuşmaqla dünya çətinliklərindən xilas olur, günahkar bəndə öləndə dünya və dünyadakılar onun əlindən xilas olur.

İstəklərini azalt ki, yoxsulluq asan olsun. Günahlarını azaltsan, ölüm asanlaşar.

## Həzrət Əli (ə) buyurur:

Təəccüb edirəm o kəsə ki, hər gün ömrünün azaldığını görə-görə ölümə hazırlaşmır.

Əgər ölümü satın almaq olsaydı, varlılar onu alıb həmişə dünyada qalardılar.

Dünya üçün elə çalış ki, sanki həmişə dünyada qalacaqsan. Axirət üçün elə çalış ki, sanki sabah öləcəksən.

Həqiqətən, sən axirət üçün yaradılmısan. Beləsə, axirət üçün çalış. Dünya üçün yaradılmadığından ondan uzaq dayan.

Dünya və axirət şərq və qərb kimidir. Bunların arasında hərəkət edən birinə yaxınlaşanda o birindən uzaqlaşar.

Allahın bir mələyi var, hər gün belə nida çəkər: "Ölüm üçün doğun, dağıtmaq üçün toplayın, viran qoymaq üçün qurun!"

## İmam Səccad (ə) buyurur:

İnsan üçün 3 ağır an var: Ölüm mələyini gördüyü an, qəbirdən qalxdığı an, Rəbbinin hüzurunda dayandığı an.

Mömin üçün ölüm çirkli libası çıxarıb, zəncirlərini qoparıb atmaq kimidir. Əvəzində iftixarlı və ətirli libaslar geyinir, rahat miniklərlə əmin-aman mənzillərə yola düşür. Kafir üçün ölüm iftixarlı libasları çıxarıb çirkli libas geymək, rahat mənzildən əzab-əziyyət ağuşuna köçməkdir.

## İmam Sadiq (ə) buyurur:

Kim asan can vermək istəyirsə, ata-anasına, yaxınlarına yaxşılıq etsin. Bu işləri görsə həyatında nadanlıqdan əziyyət çəkməz, çətinliklə ölməz.

Ey insanlar! Dünyanı abad edib, axirəti viran qoyduğunuzdan abadlıqdan xarabalığa getmək istəmirsiniz.

Ölüm nə vaxt səni yaxalayacağı məlum olmayan bir dəhşətdir. Nə üçün o gəlib çatmamış hazırlaşmayasan?!

Ölüm mömin üçün ən xoş ətir kimidir. Bu ətirlə bütün əzab-əziyyətlərə son qoyular. Kafir üçün ölüm ilan və əqrəbin çalması kimi, hətta daha ağrılıdır.

Ustad Hüseyn Ənsari

# MƏLƏKLƏR

*Mələk kəlməsi lüğətdə güclü, qüvvətli, elçi, xəbərçi mənalarına gəlir. Mələk sözü Qurani-Kərimdə orta hesabla səksən yerdə keçməkdədir. Allah, insanı torpaqdan, cinləri oddan, mələkləri isə nurdan yaratmışdır.*

*Mələklər normal gözlə görülməyən nurani varlıqlardır. Quranda mələklər və sifətləri, vəzifələri və xüsusiyyətlərindən bir çox ayədə bəhs edilmişdir. Hətta Qurani-Kərim mələklərə imanı Allaha, kitaba və Peyğəmbərlərə imanın bir parçası olaraq təyin etmişdir.*

*"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) Peyğəmbərlərinə iman gətirərək dedilər: Biz Onun Peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!" (Bəqərə, 285.)*

*Həqiqətən, mələklərin varlığı qeybi xəbərlərdəndir. Onların varlığının isbatına da nəqli dəlillərdən başqa dəlilimiz yoxdur. Qeybə iman hökmüylə onlara da iman etmiş oluruq.*

## Qurani-Kərimdə mələklərin xüsusiyyətləri

Qurani-Kərim mələklərin xüsusiyyətlərini belə xarakterizə edir:

**1- Mələklər, ağıl sahibi şürlu və Allahın əziz və hörmətli bəndələrindəndir.** "(Mələklər) lütf və ehsana şamil olan qullardır". (Ənbiya, 26.)

**2- Onlar Allahın əmrini icra etmədə əsla günaha düçar olmazlar.**

"(Mələklər) Ondan qabaq söz danışmaz, Yalnız Onun əmri ilə iş görərlər". (Ənbiya, 27.)

**3- Onlar daima Allahı xatırlayıb təqdislə məşğuldurlar.**

"Mələklər də Rəbbini həmd-səna ilə təqdis edər və yerdəkilərin (günahlarının) bağışlanmasını diləyərlər". (Şura, 5.)

**4- Onlar insan şəklində Peyğəmbərlərə və bəzən də digər insanlara görünərlər.**

"Biz də Öz ruhumuzu (Cəbraili Məryəmin) yanına göndərdik. Ona (Məryəmə) kamil bir insan qiyafəsində göründü". (Məryəm, 17.)

**5- Onlar müxtəlif məqamdadırlar; bəziləri davamlı rukuda, bəziləri isə davamlı səcdə halındadırlar.**

"(Cəbrail Peyğəmbər əleyhissəlama belə dedi: ) Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri olmasın!".

"Və (Allahı) təqdis edib şəninə təriflər deyirik".( Saffat, 164-166.)

**6- Mələklər quruluş olaraq iri quruluşlu, cüssəli və güclü varlıqlardır.** Qurani-Kərim belə açıqlayır:

"Onu (Muhəmməd əleyhissəlama) çox qüvvətli olan (Cəbrail) öyrətdi". (Nəcm, 5.) "Və çox sərt təbiətli mələklərdir (zəbanilərdir)". (Təhrim, 6.)

**7- Mələklərin həm əlləri, həm də qanadları vardır:** "Mələklərin də (bu zaman) əllərini uzadıb". (Ənam, 93.)

"Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (Peyğəmbərlərə) elçi edən Allaha həmd olsun! (Allah) məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!". (Fatir, 1.)

## Hədislərdə mələklərin sifətləri

Rəvayətlərimizdə isə mələklər haqqında bəzi sifət və xüsusiyyətlər nəql edilmişdir ki, onlardan bəzilərini qısaca belə sıralaya bilərik:

**1- Onlar, yeməz, içməz və evlənməzlər.**

İmam Cəfər Sadiqdən nəql edilən bir hədisdə belə oxuyuruq: "Mələklər yemək yeməz, su içməz və evlənməzlər, onlar ərşin nəsimiylə yaşayarlar".

**2- Onlar yatmaz, qəflət etməz, tənbəllik etməzlər.**

İmam Əli (ə) belə buyurur: "Mələklər tənbəllik, qəflət və unutqanlığa düşməz, yuxu onlara hakim olmaz, ağılları unutqanlıq və yanlışlığa düşməz, ataların sülbündə və anaların bətnində də iştirak etmədilər".

**3- Qiyamətə qədər ömürlərini rüku və səcdədə keçirən mələklər vardır.**

İmam Cəfər Sadiq (ə) buyurur: "Allahın qiyamətə qədər

rukuda və səcdədə olan mələkləri vardır".

**4- Mələklərin cinsiyyəti yoxdur.** Onların erkəyi və dişisi olmaz. İslamdan əvvəlki ərəblər mələklərin cinsiyyəti olduğunu zənn edərək onları Allahın qızları sanırdılar. Qurani-Kərim, mələkləri qəsd edərək, ərəblərin bu fikirlərin yanlışlığını bu cümlələrlə ortaya qoyur:

"(Ya Peyğəmbər! İndi o müşriklərdən) soruş: Deməli, qızlar sənin Rəbbinin, oğlanlar isə onların özlərinindir, eləmi?" "Yoxsa, Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar?!". (Saffat, 149-150.)

**5- Mələklər yalnız Peyğəmbərlərə deyil normal insanlara da görülə bilərlər.**

Bəzən mələklər insan şəklinə girərək insanlara bir şeylər öyrətmək üçün yer üzünə gəlirlər. Mələklərin yer üzünə gəlib insanlara bir şeylər öyrətməyi haqda Quranda bizlərə izah edilmişdir.

Allah-Təala buyurur: "Halbuki (o iki mələk): Biz (Allah tərəfindən göndərilmiş) imtahanıq (sınağıq), sən gəl kafir olma!". (Bəqərə, 102.)

## Mələklərin vəzifələri

Mələklərə uca Allah tərəfindən müxtəlif vəzifələr verilmişdir.

Onlar insanlar kimi vəzifələrində heç bir qüsur və yanlışlığa düşməz. Mələklərin vəzifələrindən bəziləri:

**1- İçlərindən bir qrup ərşin daşıyıcılardır.**

"Mələklər də onun (göyün) ətrafında (Allahın əmrinə müntəzir) olacaq və həmin gün (ya Peyğəmbər!) sənin Rəbbinin ərşini onların (başı) üstündə səkkiz mələk daşıyacaqdır!". (Haqqə, 17.)

**2- Bir qrupu işləri idarə edənlərdir.**

"İşləri idarə edən (mələk) lərə". (Naziat, 5.)

**3- Bir qrupu ruhları almaqla vəzifəlidir.**

"Allaha iftira yaxan, Onun ayələrini yalan hesab edən kimsədən daha zalım kim ola bilər? Kitabda (lövhi-məhfuzda) yazılmış qismətləri onlara çatacaqdır. Nəhayət, elçilərimiz (göndərdiyimiz mələklər) canlarını almaq üçün yanlarına gəldikdə: "Allahdan başqa ibadət etdiyiniz bütləriniz haradadır?" - deyincə: "Onlar bizi qoyub qaçdılar!" - deyə cavab verəcək və öz əleyhlərinə, kafir olduqlarına şahidlik edəcəklər". (Əraf, 37.)

**4- İçlərindən bəziləri insanların etdiklərini yazıb qeyd edirlər.**

"Sizin üstünüzdə gözətçi mələklər" –"Onlar sizin nə etdiklərinizi bilirlər". (İnfitar, 10-12.)

**5- Bir qrupu insanları təhlükədən qoruyurlar.**

"(Allah) Öz bəndələri üzərində hakimi-mütləqdir. O sizə (yaxşı və pis əməllərinizi yazan, sizi şeytandan qoruyan) gözətçi mələklər göndərir". (Ənam, 61.)

**6- Bir qrupu müharibələrdə möminlərə köməkçi olanlardır.**

"Ey iman gətirənlər! (Xəndək, yaxud Əhzab vuruşunda Qüreyş, Qətəfan və yəhudilərin Bəni-Nəzir qəbilələrindən təşkil olunmuş) ordular sizin üstünüzə gəldiyi zaman Allahın sizə olan nemətini yada salın. O vaxt Biz onların üstünə külək və sizin görmədiyiniz (mələklərdən ibarət) qoşun göndərmişdik. Allah o zaman sizin nə etdiyinizi görürdü". (Əhzab, 9)

**7- Bir qrup Peyğəmbərlərə vəhyi çatdırma vəzifəsində olanlardır.**

"(Allah) Öz əmri ilə mələkləri (Cəbraili) vəhy ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Mənim adımdan onlara) bildirin: Məndən başqa heç bir tanrı yoxdur. Məndən qorxun!".( Nəhl, 2.)



**8- Bir qismi cəhənnəmdə vəzifəlidir, zəbani adlı mələklər, Allahın əmri ilə günahkarların cəzasını verirlər.** Qurani-Kərimdə cəhənnəmdəki Sakar adında bir quyudan bəhs edilir. O quyunun mələklərinin sayının 19 olduğu bildirilmişdir:

"Onun üstündə on doqquz (nəfər gözətçi mələk vardır".

"Biz cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik. Biz onların sayını ancaq kafirlərin imtahana çəkilməsi, kitab verilənlərin yəqinlik hasil etməsi (çünki onların kitablarında bu mələklərin sayı on doqquzdur)".

(Muddəssir, 30-31.)

**9- Bir qismi cənnət vəzifəlisidir.** Rizvan adındakı mələklər cənnətə girən insanlara salam verirlər.

**10- Hər bir insanın əməlini yazan sağındakı və solundakı mələklər.** Bu mələklər insanın yaxşı və pis əməllərini qeyd edirlər. Qurani-Kərimdə bu mələklərdən belə bəhs edilir:

"Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) təsbit edən (qeydə alan) iki mələk oturmuşdur!" (Qaf, 17.).

**11- İnsanlara məzarda sual verən mələklər.**

Bəzi kitablarda yaxşı insanı sorgu-sual edəcək mələklərin adlarının Bəşir və Mübəşşir, pis insanları sorğu-sual edəcək mələklərin isə Nəkir və Münkər olduğu açıqlanmışdır.

# QURANDA İŞLƏNMİŞ "QƏLB" SÖZÜNÜN MƏNASI



**1. "Qəlb" sözünün leksik mənası**

Ərəb dilində qəlb (ürək) dəyişilmə və çevrilməyə deyilir. "Lisanul-ərəb" və "Əl-Misbahul-munir" əsərlərində qəlb bədən üzvü mənasında işlədildiyi kimi, ağıl mənasında da işlədilmişdir.

İbn Mənzur "Lisanul-ərəb" əsərində yazır: "ما لك قلب" (Mə ləkə qalbun - Sənin ağlın yoxdur) , "ما قلبك معك" (Mə qalbukə məak – ağlın özündə deyil), "اين ذهب قلبك" (Əynə zəhəbə qalbuk – Ağlın hara gedib?). Bütün bu misallarda qəlb ağıl mənasında işlədilmişdir.

İbn Əsir "Ən-Nihayə" və İbn Faris "Məqayis əl-luğət" əsərində yazırlar: "Hər şeyin xalis və qiymətli hissəsinə həmin şeyin qəlbi deyilir. İnsanın həqiqəti, xalis və qiymətli yönü qəlb adlanır".

"Mufrədatu əlfazil-Quran"da belə qeyd edilmişdir: "Qəlb sözü ruh mənasında işlənir" (6).

Əllamə Mustəfəvi "Ət-Təhqiq" əsərində yazır: "Hər bir insanın iki qəlbi var: 1. Maddi qəlb (insan bədənindəki qan dövranını tənzimləyən ürək); 2. İnsanın həqiqətini ifadə edən daxili və mənəvi qəlb.

**2. "Qəlb" sözünün Quranda işlənmiş məna çalarları**

Qəlb sözü Quranın yüzdən çox yerində işlənmişdir. Ərəb dilində ifadə etdiyi məna çoxluğundan asılı olaraq qəlb sözü Quranda həm bədən üzvü, həm ağıl, həm də ruh mənalarında işlədilmişdir. Bu söz istər omonim mənada götürülsün, istərsə də məcazi. Ərəb dilindən məlumatı olanların onun qeyd olunan mənalarda işlənməsindən xəbərləri var.

Bu cəhətdən qəlb sözünün Qurandakı məna çalarlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Ağıl və idrak qüvvəsi mənasında:** "Qaf" surəsi, 37-ci ayə: "إِنَّ فِي ذَٰلِكَ لَذِكْرَىٰ لِمَنْ كَانَ لَهُ قَلْبٌ" (Bunda qəlbi (ağlı) olan kimsə üçün xatırlatma və ibrət vardır)

**2. Can mənasında:** "Əhzab" surəsinin 10-cu ayəsi: "إِذْ زاغَتِ الْأَبْصارُ وَ بَلَغَتِ الْقُلُوبُ الْحَناجِر" (O vaxt gözlər qorxudan bərəlmiş, ürəklər ağıza gəlmiş)

**3. Əməl və seçim azadlığına malik olan nəfs mənasında.** İnsan öz azad seçimi ilə iman gətirir, əməl edir və sair. Quranda iman gətirib saleh əməl edən şəxsin sağlam qəlbə malik olduğu qeyd edilmişdir: "إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ" (Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələnlərdən başqa!) (Şüəra surəsi, 89)

**4. Vəhyin nazil olduğu yer:** "فَإِنَّهُ نَزَّلَهُ عَلَىٰ قَلْبِكَ بِإِذْنِ اللَّهِ" (Allahın izni ilə onu sənin qəlbinə nazil etmişdir) (Ali-İmran surəsi, 159)

**5. Hiss və emosiyaların mərkəzi mənasında:** "Ali-İmran" surəsi, 159-cu ayə: "وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ" (Əgər qaba və daşürəkli olsaydın, ətrafından dağılışıb gedərdilər)

**6. Rəy və nəzər mənasında:** "تَحْسَبُهُمْ جَميعاً وَ قُلُوبُهُمْ شَتَّى" (Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır) (Həşr surəsi, 14)

Göründüyü kimi, qəlb sözü ərəb dilində omonim olmaqla yanaşı, həm də məcazi mənada işlənir. Ümumiyyətlə, ürək və qəlb sözləri təkcə ərəb dili yox, digər dillərdə də müxtəlif mənalar ifadə edir.

**3. Absurd, savadsız, səthi bir iddia!**

Ateistin biri durub deyir ki, VII əsrdə Peyğəmbər (s) orqanları ayırd edə bilmirmiş və qəlbin düşündüyünü, tanıdığını, danışdığını, gördüyünü deyirmiş.

**Cavab:**

O qədər savadsız iraddır ki, doğrusu, adam bilmir gülsün, ya ağlasın.

İddianı irəli sürən ateistin adi dilçilikdən xəbəri yoxdur. Xəbəri olsaydı, qətiyyən belə primitiv səhvə yol verməzdi. Azərbaycan dilində qəlbini ələ almaq, ürəyinə dammaq, ürəyim ayağımın altına düşdü, ürəyim ağzıma gəldi, ordunun ürəyi, ürək dənizdən dərindir, ürək öz dostunu tanıyar, ürək ki var, şüşədir, ürəyi istəmək, ürəkli, ürəksiz adam və s.

Bütün bunlar ürək sözünün məcazi, simvolik mənalarda işləndiyini göstərir. Yoxsa ki, tanımaq şüurla bağlı bir şeydir, ürək şüşə yox, ətdəndir, ürək hara, dənizin dərinliyi hara, ürək necə istəyə bilər axı? Ürəyin işi qan dövranını tənzimləməkdir. Ürək gəzmək, yemək istəyir, ürəyin gözü kormuş, ürək susdu, danışmadı, ürəyi barışmadı və sair idiomlar işlədildikdə kimsə deyə bilməz ki, qarşı tərəf orqanları qarışdırıb və ya onların funksiyalarından xəbəri yoxdur.

Qeyd olunan misalların sayını artırmaq da olar. Ürəyin görməsi, eşitməsi, dərk etməsi və sairəni ərəb dilinə Peyğəmbər gətirməyib, ərəb dilində bunlar işlənib.

Dilçilər ürək sözünün dildə bu cür müxtəlif mənalarda

işlədilməsini onun həqiqi mənada ifadə etdiyi məzmunla əlaqələndirmişlər. Ürək bədənin bir üzvü kimi ən vacib və mərkəz orqan olduğu üçün dildə digər abstrakt fəaliyyətləri ifadə edən mərkəz orqanı da simvolizə edir. Dildə simvolika, məcaz, təşbeh, metafora və sair vasitələr dilin gözəlləşdirilməsinə, fikrin daha gözəl, bədii, estetik, dərin məntiqli ifadə edilməsinə xidmət edir.

Famil Burxanoğlu

# AZ YEMƏK VƏ QƏNAƏTƏ RİAYƏT ETMƏK

**Qurani-Kərimdə Allah-Təala buyurur: "Yeyin-için, lakin israf etməyin! Allah israf edənləri sevməz" (Əraf, 31)**

***Rəvayət edirlər ki, keçmiş zamanlarda bir müsəlman alimlə xristian təbibin elmi mübahisəsi baş verir.***

Xristian təbib iddia edir ki, sizin dininizdə (yəni İslamda) tibb ilə bağlı heç bir tutarlı məlumat yoxdur. Müsəlman alim etiraz edərək cavab verir: "Əksinə, bütün tibb elminin xülasəsi Qurani-Kərimin bir ayəsində cəmləşib". Xristian həkim hansı ayədən söhbət getdiyini soruşanda müsəlman alim yuxarıdakı ayəni oxuyur. Ayəni eşidən xristian heyrət içində deyir: "Doğru deyirsiniz, bütün tibb elminin xülasəsi bu kiçik ayədə öz əksini tapıb".

İslam müqəddəsləri az yeməyin faydalarını və çox yeməyin ziyanlarını dönə-dönə öz kəlamlarında vurğulamışlar. Peyğəmbərimiz (s) buyurmuşdur ki, "dərmanların anası az yeməkdir". Az yemək möminə yaraşan sifətdir, Allahın bəyəndiyi davranışdır. Hədislərdə buyurulur ki, əksinə, çox yemək qəlbi daşlaşdırar, insanı mərhəmətsiz və zalım edər.

Hər bir məsələdə olduğu kimi, yemək məsələsində də ifrat və təfritdən çəkinmək lazımdır. İnsan acmamış süfrə arxasına oturmamalı, amma tam doymadan süfrədən qalxmalıdır. Ehtiyacdan az yemək insanda zəiflik yaradar, gündəlik həyatı normal yaşamağa, o cümlədən, ibadət etməyə bədəndə qüvvə olmaz. Ehtiyacdan çox yemək isə, əksinə, ağırlıq yaradar, bunun nəticəsində yenə bədənin fəaliyyəti çətinləşər, ibadətdə tənbəllik meydana çıxar.

İmam Əli ibn Əbutalib (ə) buyurmuşdur: "Hər cür nöqsandan uzaq olan Allah öz bəndəsini islah etmək istəsə, ona az danışmağı, az yeməyi və az yatmağı ilham edər" (Müstədrək əl-Vəsail, 16-cı cild, səh. 213, hədis 19.634).

**Az yeməklə yanaşı, sadə yemək süfrəsi də dinimizdə tövsiyə edilir.**

Həzrət Muhəmməd Peyğəmbər (s) heç zaman iki cür yemək yeməzdi. Ümumiyyətlə, o həzrətin süfrəsi çox sadə olardı. Müqəddəslərimiz yemək deyərkən, bizim başa düşdüyümüz xörəkləri nəzərdə tutmurdular. Peyğəmbərin yeməyi çox zaman ya süddə çörək, ya da sirkə ilə çörək olardı, hətta bu iki yeməyi də eyni zamanda öz süfrəsinə qoymazdı. Rəngarəng, dəbdəbəli yeməklər israf kimi qəbul edilir. İmam Əli (ə) buyururdu ki, yemək xatirinə yaşama, yaşamaq xatirinə ye. Yəni yeməyi öz həyatının məqsədi etmə, səni ayaq üstə saxlamaq, gündəlik fəaliyyətin üçün bədənində qüvvə yaratmaq məqsədi ilə qidalan.

Ariflərin tövsiyələrində də az və sadə yeməklə bağlı fikirlərə tez-tez rast gəlirik. Məşhur arif Mirzə Cavad Məliki Təbrizi öz ustadı Molla Hüseynqulu Həmədaniyə istinadən yazırdı ki, insan gərək gündə iki dəfədən artıq yeməsin və bu iki yeməyin arasındakı vaxtda da heç bir qida qəbul etməsin. Yemək istəsə, gərək acandan bir saat sonra yesin, o qədər yesin ki, tam doymasın. Ət xörəyindən az istifadə etmək, gün ərzində iki dəfə ət yeməkdən çəkinmək lazımdır.





# Nə üçün Allah evinin üstünə çəkilən pərdə yalnız qara rəngdədir?

**Hal-hazırda Kəbə evinin üstünə çəkilən qara rəngli parça "Kəbənin köynəyi", "Kəbənin pərdəsi", yaxud "Kəbənin paltarı" adlandırılır. Bu pərdə son əsrdə qara rəngli olmuş və Quran ayələri onun üzərində gözəl xətlə və qızılı rəngdə yazılmışdır. Amma əvvəllər bu pərdə üçün digər rənglərdən istifadə olunurdu.**

İbni İshaq yazır: "Peyğəmbər (səlləllahu əleyhi və alih)-in dövründə Kəbənin üstünə Misirdə toxunan və qibati adı ilə məşhur olan ağ rəngli pərdə salırdılar. Ondan sonra Yəmən parçalarından istifadə olunurdu. Peyğəmbərdən sonra Ömər, Osman, Həccac və İbni Zübeyr Kəbənin üstünü qubati və diba pərdəsi ilə örtürdülər."[1]

Bu pərdə bəzən yaşıl və bəzən qırmızı olurdu, bəzən də onun üzərinə üst-üstə bir neçə parça salınırdı. Nasir Abbasinin xilafəti dövründə Kəbə üçün əvvəlcə yaşıl rəngli pərdə salınırdı. Onun xilafətinin axırlarında isə qara rəngli parça hazırlayırdılar.

Misir sultanları Kəbə pərdəsini hazırlamağı öhdəsinə aldıqları zamandan sonra hər il Kəbə üçün qırmızı rəngli parça göndərilirdi.[2]

Məlik Şah Səlcuqinin dövründə iranlılar Kəbə pərdəsini hazırlamaq iftixarına nail oldular. Bu zaman Kəbə üçün hazırlanan pərdələr sarı rəngli idi. İbni Bəttutə öz "Səfərnamə"sində ("Rəhlə") yazır: "Kəbə evinin köynəyini İranın Xuzistan əyalətinin Şuştər şəhərində xalis dibadan (ipəkdən) toxuyur və Kəbəyə göndərirdilər. 1221-1229-cu illərdə Hicaz əhli pərdəni hazırlamaq iftixarına nail olmuşdular. Onlar ilk pərdəni qırmızı ipəkdən, sonrakı illərdə isə qara ipəkdən hazırlayırdılar..."[3]

Həcc mərasimində, xüsusilə pərdənin dəyişdirilməsi günlərinə yaxın olan zaman onu yavaş-yavaş yuxarı qaldırır, bükür və onun yerinə ağ pərdə salırdılar. Həcc mərasimi qurtardıqdan sonra ona başqa bir təzə pərdə salırdılar.[4]

Buna əsasən, Kəbə evinin parçasının (paltarının) qara olmasının xüsusi bir dəlili yoxdur və bu işi öhdəsinə alanların səliqəsinə bağlıdır.

---

[1] Əsğər Qaidan, "Məkkeyi-mükərrəmə və Mədineyi-münəvvərənin islami abidə və tarixi əsərləri", səh. 95

[2] Yenə orada, səh. 96

[3] Seyid Kibari, "Simayi Kəbə", səh. 161

[4] Seyid Kibari, "Simayi Kəbə", səh. 162; Məhdi Mültəca, "Fərhəngi danistənihayi piş əz səfər be Xaneyi Xuda", səh 2012; Məhəmməd ibni Əbdullah ibni Əhməd Əzrəqinin yazdığı "Əxbari Məkkə və ma caə fiha minəl-asar" kitabının 97-ci səhifəsindən nəqlən.



islamquest.net

# İNSANLAR ÖLMƏSİN, İNSANLIQ ÖLMƏSİN!

***Kaş müharibələr olmayaydı, müharibələrə də fərq qoyulmayaydı. Zalimin kimliyinə də baxılmayaydı, məzlumun rənginə, irqinə, millətinə, dininə və məzhəbinə də.***



Kaş ki, müharibələrə qarşı olmaqda fərq qoyulmayaydı.



Kaş ki, bombalar altında qalan insanların əzilməsinə dininə, millətinə baxılmadan seyirci qalınmayaydı .



Kaş ki, yaşamaq üçün başqa ölkələrə üz tutanların dininə, məzhəbinə və irqinə baxılmayaydı.



Kaş ki, dünyada yardım etməkdə şərq və qərb bölgələri ayrıseçkiliyi aparılmayaydı.



Kaş ki, medialar siyasi sifarişlərlə deyil, qərəzsiz və tərəfsiz yayım edəydi.



Kaş ki, hər zaman haqlının yanında olunardı, ikili standartlar yürüdülməyəydi